# Onun ürəyi Vətənlə döyünürdü



***Əzəli, əbədi yurd yerimiz olan İkinci Qarabağ müharibəsi başlanan gündə "Təki Vətən yaşasın"- deyib odun-alovun içinə atılan minlərlə qəhrəman oğullardan biri Sadiq Tahir oğlu Feyziyev olur. Vətənini canından əziz tutması onun iç dünyasından, mənəvi aləmindən qaynaqlanırdı. Ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən 44 günlük haqq savaşımızda tarix yazıb şəhidlik zirvəsinə ucalmağı həm də doğulub boya-başa çatdığı Yardımlı rayonunun Zevin kəndini Azərbaycana igidlər diyarı kimi tanıtdı. 27 il oldu bu dağlar qartalının ömür yolu. Bu yol qısa olsa da, elinə şərəf gətirdi, Vətənə, torpağa sonsuz məhəbbət mücəssəməsinə döndü.***

Hələ uşaqlıqdan ürəyində mənfur düşmənlərə qarşı kin, nifrət bəsləyən Sadiq orta məktəbdən sonra Hərbi Tibb Universitetində oxuyub dərin savad alır. 2013-cü ildə Vətənə cəsur oğullar gərək olduğu zaman o, cəbhə bölgəsində əyninə hərbi paltar geyinir. Özündə Vətəninə, dövlətinə, xalqına məhəbbət hissini yaşatmaqla həkim kimi əsgəri borcunu şərəflə yerinə yetirir. Nümunəvi xidməti ona əsgərlərin, zabitlərin hörmətini qazandırır. 2016-ci ilin aprelin 26-da Sadiq də Vətən naminə qanlı döyüşlərə atılır. Düşmənin çox sayda canlı qüvvəsini məhv edir, neçə-neçə yaralı qəhrəman döyüşçüyə tibb yardım göstərməklə ikinci həyat verir.

Vətən müharibəsi başlananda da Sadiq silaha sarılıb düşmənin qarşısına birinci çıxanlardan olur. İlk gündən şəxsi şücaəti igidləri ruhlandırır, qələbə üçün böyük təminatlar verir. Ağır müharibə meydanlarında öndə getməklə, yaralı döyüşçülər onun şəfalı əlləri ilə ikinci dəfə düşmənə qan qusdurur. Talış kəndi və Suqovuşan qəsəbəsinin azadlığı uğrunda hünər göstərir. Suqovuşandan sonra Ağdərə istiqamətində gedən qeyri-bərabər döyüşdə snayper Sadiqi vurub yaralanır. Ondan sonra qərargah rəisi də yağı gülləsinə tuş gəlir. Sadiq özü yaralı olduğu halda qərargah rəisinə tibbi yardım göstərir. Bu zaman onların olduğu yer raket zərbəsi ilə vurulub, qəlpədən həm Sadiq, həm də qərargah rəisi bir yerdə şəhid olublar.

Vətəni canından əziz tutan iki qəhrəman əbədiyyət qazanır. Sadiq Feziyev ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medallara layiq görülür.

***Zəfər Orucoğlu, AJB üzvü***